# Şərəfli döyüş yolu




**Şəhidlik əlçatmaz zirvədir. Özlərinə əbədiyyət heykəli ucaldaraq şəhid adını qazanan igid oğullarımız xalqımızın qəhrəmanlıq tarixində həmişə yaşayacaq və xatırlanacaq. İllər keçsə belə onların Vətəninə, xalqına, millətinə olan sevgisi hər birimiz üçün örnək olacaq.**

İmişlidə Vətən müharibəsində fəal iştirak edən şəhid Əzizli Sabir Hikmət oğlunun doğum günü qeyd edildi. Yaşasaydı, 23 yaşı olacaqdı. Anım mərasimində İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyətin nümayəndələri iştirak etdilər. Mərasim iştirakçıları şəhid Sabir Əzizlinin məzarını ziyarət edib, ruhuna dualar oxuyub, üzərinə tər çiçəklər düzdülər.

Şəhid Sabir Əzizlinin doğum günündə adını daşıyan bulağın da açılışı oldu. Sonra şəhidin ata ocağında valideynləri ilə görüşdülər. Rayon rəhbəri şəhidin valideynləri ilə görüşdə ailə üzvlərinin problemləri ilə maraqlandı. Tədbirdə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qüdrətli Azərbaycan Ordusunun qazandığı tarixi Qələbədən söz açan rayon icra hakimiyyətinin başçısı Elçin Rzayev həmin qələbədə payı olan Sabir Əzizli kimi qəhrəman oğullarımızla hər birimizin fəxr etdiyini bildirdi. Qeyd etdi ki, Azərbaycanın tarixi zəfərinin mənbəyi xalqımızın həmrəyliyi, Ali Baş Komandanın ətrafında sıx birləşən xalqın inamı, Azərbaycan Ordusunun məğlubedilməzliyi, hünəri və qeyrəti idi. Çıxış edənlər 44 günlük müharibədə əldə etdiyimiz şanlı qələbəyə görə Ali Baş Komandana, şanlı Azərbaycan Ordusuna, şəhidlərimizə, qazilərimizə borclu olduğumuzu söylədilər. Sabir Əzizli Vətən müharibəsində əsgər kimi şərəfli döyüş yolu keçib. Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə ağır yaralansa da, döyüşlərə yenidən davam etmiş və döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısına qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Əzizli Sabir Hikmət oğlu ölümündən sonra "Cəsur döyüşçü", "Vətən uğrunda" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

**Ərəstun ABDULOV,**
**"Respublika".**

Respublika.- 2021.- 19 noyabr.- S.5.